əlaqədar yerinə yetirilən fəaliyyət mahiyyət ehtibarı ilə həm daxili, həm də xarici təhlükə mənbələrini uçota almaqla baş verməsi ehtimal olunan təhdidlər əsasında müəyyən edilir. Başqa sözlə, sahibkarlıq subyekti özünün təsərrüfat fəaliyyətini optimal qurmaqla istehsal (xidmət) sahəsində nəzərdə tutulan effektiv nəticələrə nail olursa, deməli, təhlükəsizlik sistemi subyektin fəaliyyət istiqamətindən asılı olaraq qarşısında duran məqsəd və vəzifələrin həlli variantlarını çox asanlıqla tapmaq və reallaşdırmaq üçün geniş imkanlar yaradır. Daha doğrusu, biznes subyektlərinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi praktiki olaraq onların istehsal-təsərrüfat fəaliyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

### İstifadə edilən ədəbiyyat


1. Государственная политика в сфере обеспечения национальной безопасности: экономико-правовой аспект: монография / под ред. С.Ю. Наумова, Б.В. Чернышева. Саратов : ССЭИ РЭУ им. Г.В. Плеханова, 2016.
2. Григорьева Е.А. Институциональное обеспечение модернизации экономики как условие экономической безопасности: монография. М. : ИНФРА-М, 2015.
3. Проблемы экономической безопасности: глобальные и региональные аспекты: монография. Челябинск : Южно-Уральский гос. ун-т, 2018.
4. Сушкова И.А., Калашникова Н.И., Калашников И.Б., Уколова Н.В. Современные аспекты анализа экономической политики: монография. Саратов : Наука, 2012.


## SAHİBKARLIQ FƏALİYYƏTİNİN SƏMƏRƏLİ TƏŞKİLİ


*Xəlilov Xəlil Ramiz oğlu*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*


Bazar iqtisadi sisteminə əsaslanan iqtisadiyyatın formalaşmasında və inkişafında sahibkarlıq bilavasitə rol oynayır. Bazar iqtisadiyyatını səciyyələndirən əsas cəhətlərdən biri sahibkarlığın inkişafıdır. Elə bazar iqtisadi sistemini digər sistemlərdən fərqləndirən əsas cəhət də azad sahibkarlıq anlayışıdır. Sahibkarlığa belə bir elmi tərifini isə belə vermək olar: Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) cəmiyyət üzvlərinin şəxsi gəlir və ya mənfəət əldə etəmyə yönəldilən, öz riski və öz əmlak cavabdehliyi ilə həyata keçirilən müstəqil təşəbbüskarlıq fəaliyyətidir.Bu fəaliyyətlə məşğul olanlar isə sahibkar adlanırlar.

Sahibkarlıq fəaliyyəti ilk əvvəl dövlət qeydiyyatından keçməlidir. Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna əsaslanır. Hüquqi şəxs yaratmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin qeydiyyatını Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və rayon və icra hakimiyyəti aparır. Sahibkar fiziki şəxs olduqda isə qeydiyyat Azərbaycan Respublikası Vergilər Nazirliyində aparılır. Müəssisənin dövlət qeydiyyatına alınması üçün:

- Təsis sənədləri və hüquqi şəxsin nizamnaməsi
- Hüquqi şəxsin yaradılması haqqında təsis müqaviləsi

- Dövlət rüsumunun ödənilməsi haqda sənəd

- Təsisçinin hüquqi ünvanı(fiziki şəxs olduqda- poçt) haqqında sənəd

Sahibkar səmərəli fəaliyyət yaratmasında sahibkarlıq mühitini, bazarı öyrənmək və təhlil etmək vacibdir. Bunun üçün aşağıdakılar müəyyənləşdirilməlidir:Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün əlverişli mühit, investisiya üçün əlverişli imkanlar, fəaliyyətə mənfi və müsbət təsir göstərən amillər, kredit əldə etmək imkanlar, dövlət imtiyazları və güzəştləri, infrastruktur şəbəkəsi, rəqiblər, tərəf müqavilləri. Bu təhlildən sonra strategiya müəyyənləşdirilir. Bundan sonra qarşıya qoyulan məqsədə çatmaq üçün tədbirlər məcmusu işlənib hazırlanır. Öncə ümumi ümumi vəzifələr işlənib hazırlanır, konkret məqsədlər müəyyənləşdirilir, nəzarət imkanları aydınlaşdırılır, əsas tədbirlər, taktika işlənib hazırlanır, əldə olan resurslar və maddi-texniki təminat müəyyənləşdirilir. İşçi heyətinin düzgün seçilməsi  sahibkarlıq fəaliyyətinin uğurla həyata keçirilməsinində mühüm rol oynayır. Kadrların düzgün seçilməsi istehsal prosesində ba verə biləcək problemləri asanlıqla həll etməyə imkan verir.

Elmi-texniki inqilab sahibkarlıq fəaliyyətinin hər bir mərhələsində əmək bölgüsünün dərinləşməsinə səbəb olmuşdur. Bu əmək bölgüsü müəssisələrdə təşkilatı strukturların formalaşmasında əsas rol oynamışdır.Müəssisənin təşkilati strukturunun hər bölməsi qarşısında müəyyən vəzifələr qoyur ki, onlar da öz növbəsində bölmənin iş yerləri arasında hissələrə bölünürlər.İş yerlərində və bölmələrdə vəzifələrin düzgün təyin olunması və bölüşdürülməsi sahibkarlıq fəaliyyətində mühüm əhəmiyyət kəsb edir. Struktur bölmələrində və iş yerlərində vəzifələrin yerinə yetirilməsi onun icraçıları qarşısında müəyyən tələblər qoyur.Hər bir vəzifə özünün xüsusiyyətləri ilə icraçıdan müəyyən biliklər, qabiliyyət, ixtisas səviyyəsi tələb edir.Buna görə də vəzifələrə görə icraçılara qoyulan tələblər kadrların seçilməsində əsas rol oynayır.

İqtisadi mühit amili də sahibkarlığa əhəmiyyətli dərəcədə təsir edir. Belə ki,inflyasiya istehlakçının alıcılıq qabiliyyətini azaldır.Yeni vergilər gəlirlərin bölüşdürülməsini dəyişə bilər və müvafiq alıcılıq qabiliyyətində dəyişikliyə gətirib çıxarır.Sosial şəraitlə əlaqədər demək olar ki, hökumətin dəyişməsi sahibkarlığa köməyə təsir edə bilər. Sabitliyin olması sahibkarlıq fəaliyyəti üçün demək olar ki, birinci amildir. Çünki sahibkar öz əmlakı ilə risk edir. Bu halda sahibkarlar uzunmüddətli investisiya qoyuluşuna həvəs göstərmirlər. Hüquqi mühitə gəldikdə isə, qanunvericikildə olan dəyişikliklər sahibkarlıq fəaliyyətinə mənfi və ya müsbət təsir edə bilər, yəni sahibkarları həvəsləndirə və ya ləngidə bilər.Ümumiyyətlə qanunvericilik sahibkarların fəaliyyətinə əlverişli mühit yaratmalıdır.

Sahibkarlıq fəaliyyətininə səmərəli olmasına aşağıdakı amillər də əsir edir. Yeni texnologiya. Əgər sahibkar sahibkar özü yeni texnologiyadan istifadə edirsə, istehsalı səmərəli edir.Əgər rəqibi yeni texnologiyanı istehsala tətbiq edirsə, bu sahibkar üçün mənfi nəticələrə gətirib çıxarır. Sosial-mədəni mühit. Bura yeni modanın gəlməsi, əhalinin yaş-cins tərkibi,təhsil səviyyəsi və s. daxildir.Ümumiyyətlə, sahibkar fəaliyyətini inkiçaf etdirmək, müvəffəqiyyət qazanmaq üçün müntəzəm olaraq ictimaiyyətlə iş aparmalıdır.Sahibkarın fəaliyyətinə təbii-iqlim, coğrafi mühit də geniş təsir edir.

Göründüyü kimi sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatında önəmli yer tutur. Sahibkarlıq fəaliyyətsiz bazar iqtisadiyyatını təsəvvür etmək mümkün deyil. Keçid

dövrünü yaşayan ölkələr öz iqtisadiyyatını inkişaf etdirmək üçün ilk növbədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirməli, dövlət ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı üçün stimul yaratmalıdır.


**Ədəbiyyat siyahısı:**

1. Musayev V.B., Seyfullayev İ.Z "Sahibkarlığın əsasları". Bakı, 2002.
2. İ.H. İbrahimov, E.R. İbrahimov "Sahibkarlıq fəaliyyətinin iqtisadi-hüquqi mexanizmi". Bakı, 2004.
3. E.R İbraimov- "Sahibkarlığın maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi"(İqtisad Elmləri:Nəzəriyyə və praktika jurnalı)
4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reystri haqqında qanun"


## SAHIBKARLIQ FƏALIYYƏTI MÜASIR TƏSSƏRÜFAT FORMASI KIMI


*Xəlilova Xəyalə Qəmbər qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*


Azərbaycan Respublikası inzibati-amirlik iqtisadi sistemindən demokratik prinsiplərin qanunauyğunluqları əsasında qurulan və müstəqil bazar iqtisadiyyatına söykənən innovativ xarakterli iqtisadi münasibətlər sisteminə keçmişdir. Sahibkarlıq fəaliyyəti bazar münasibətlərinin inkişaf etdiyi bir cəmiyyətdə bu prosesin əsas hərəkətverici qüvvəsidir. Bazar iqtisadiyyatının mövcudluğu şəraitində mülkiyyətin müxtəlif formalarının yaranması insanlarda sahibkarlıq hissini gücləndirir, mülkiyyətə münasibəti dəyişdirir və məhsul istehsalını artırmağa maraq yaratmış olur. Ölkəmiz yeni iqtisadi münasibətlər mərhələsinə qısa vaxt ərzində və asan yolla gəlməmişdir. Respublikamız sosial - iqtisadi sahədə qazanmış olduğu nailiyyətlərə və göstərdiyi artım templərinə ölkənin yerli resurs potensialından səmərəli istifadə edilməsi və sosial bərabərlik prinsipinə uyğun ədalətli bölüşdürülməsi, xüsusilə də düşünülmüş və məqsədə uyğun şəkildə xalis iqtisadi strategiyanın həyata keçirilməsilə nail olmuşdur. Heydər Əliyevin xalqın çoxsaylı təkidi ilə növbəti dəfə hakimiyyətə dönüşündən sonra müstəqilliyini yenicə qazanmış ölkəmizin dinamik templərlə sosial-iqtisadi tərəqqisini özündə əks etdirən inkişaf planının hazırlanması və icra edilməsi mümkün oldu. Azərbaycan Respublikası 1991-ci ildə öz dövlət müstəqilliyinə qovuşduqdan sonra əsaslı şəkildə hakimiyyətdə quruculuq işlərinin və ümumiləşdirilmiş islahatların həyata keçirilməsi, yeni dövrün formalaşan tələbatına müvafiq təsərrüfat formasının yaradılması, ölkədə iqtisadiyyatın əsaslandığı azad bazar münasibətlərinin formalaşdırılması və digər dəyişikliklər zərurətə çevrilmişdi.

Sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının mühüm komponentlərindən biri sahibkarlıq fəaliyyətidir. Sahibkar üçün əsas fərdi xüsusiyyətlər aşağıdakılardır:

- sahibkar açıq fikirli olmalı; həyata müsbət baxışlarla baxmalı; hadisələrin gedişinə obyektiv yanaşmalı; problemi həll etməyi bacarmalı; cəsur olmalı; riskə getməyi bacarmalı; rəqabəti sevməli; işgüzar olmalı; qərar qəbul etməyi bacarmalı; özünü inkişaf etdirməli və etdiyi səhvlərdən nəticə çıxarmağı bacarmalıdır.